QANLI YANVAR - 32

# Dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər

Qanlı 20 Yanvar faciəsindən 32 il ötür.

AZƏRTAC xəbər verir ki, yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Baş nazir Əli Əsədov, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, diplomatik korpusun nümayəndələri Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı uğrunda həlak olan qəhrəman vətən övladlarının məzarları üzərinə tər güllər düzüb, əziz xatirələrini ehtiramla yad ediblər.














